

## Elçin Arif oğlu Kazımov – 55 il!

2021-ci il avqust ayının 9-da səmimi və qayğıkeş insan, çağdaş qazma elminin layiqli nümayəndəsi Elçin Arif oğlu Kazımovun 55 yaşı tamam olur.

O, 1966-cı ildə Bakı şəhərində müəllim ailəsində anadan olmuşdur. 1983-cü ildə 176 №-li orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) qaz-neft-mədən fakültəsinə daxil olmuş, 1990-cı ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. Təhsil aldığı müddətdə üç il ərzində tələbə elmi cəmiyyətinin sədri olmuş, 1985–1987-ci illərdə ordu sıralarında hərbi xidmət keçmişdir.

Ali məktəbi bitirdikdən sonra təyinatla ADNSU-nun "Neft və qaz quyularının qazılması" kafedrasında elmi işçi kimi əmək fəaliyyətinə başlamış, daha sonra isə akademik A.X.Mirzəcanzadənin təşəbbüsü ilə Ümumrusiya Elmi-Tədqiaqt Qazma Texnikası İnstitutunun (ВНИИБТ) əyani aspiranturasında təhsilini davam etdirmək üçün Moskva şəhərinə göndərilmişdir.

1992–1993-cü illərdə akademik A.P.Krılov adına Ümumrusiya Elmi-Tədqiqat Neft İnstitutunda (ВНИИнефть) elmi işçi vəzifəsində çalışmış, 1993-cü ildə texnika üzrə namizədlik dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir.

1994-cü ildən 2014-cü ilədək SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun "Qazma məhlulları" laboratoriyasının aparıcı elmi işçisi və müdiri işləmiş, 2014-cü ildən isə "Qazma və sement məhlulları" laboratoriyasının müdiri vəzifəsində çalışır. Elmi fəaliyyəti dövründə onun rəhbərliyi və bilavasitə iştirakı ilə qazmada texnoloji məhlullar sahəsində yenilənmiş mütərəqqi texnologiyalar Respublikamızın quru və dəniz yataqlarında qazılan quyularda müvəffəqiyyətlə tətbiq olunmuşdur. Qazmada nanostrukturlu sistemlərin işlənilməsi və tədqiqi üzrə nailiyyətlərinə görə E.A.Kazımov Parisdə "Nanoelm və nanotexnologiyalar" sahəsində UNESCO mükafatına layiq görülmüşdür.

2010-cu ildə doktorluq dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir.

2012-ci ildən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Yer elmləri" bölməsinin ekspertidir.



2018-ci ildə Rusiya Təbii Elmlər Akademiyasının üzvü seçilmişdir.

Quyuların qazılması və möhkəmləndirilməsi sahəsində 135 elmi əsərin, o cümlədən 5 monoqrafiyanın, 15 Azərbaycan Respublikası və Rusiya Federasiyası patentlərinin müəllifidir.

Elmi nailiyyətlərini Yaponiya, Çin, Vyetnam, İran, Almaniya, Tatarıstan, Başqırdıstan, Özbəkistan, Qazaxıstan və Rusiyada təşkil olunmuş beynəlxalq konfrans, simpozium, sərgi və seminarlarda yüksək səviyyədə nümayiş etdirmiş, əsərləri bu ölkələrin nüfuzlu elmi nəşrlərində dərc olunmuşdur.

Gənc elmi kadrların elmi biliklərə yiyələnməsi üçün öz bilik və bacarığını yorulmadan sərf edən Elçin müəllim texnika üzrə fəlsəfə doktorlarının hazırlanmasında da köməkliyini əsirgəmir.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Neft-qaz mühəndisliyi" kafedrasında təşkil olunan magistr dissertasiya işlərinin müdafiəsində Dövlət Komissiyasının sədridir.

"Azərbaycan neft təsərrüfatı", "Строительство нефтяных и газовых скважин на суше и на море" və "Scientific Israel – Technological Advantages" jurnallarının redaksiya heyətlərinin üzvüdür.

Ad günü münasibətilə əziz Elçin müəllimi səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, elmi axtarışlarında yeni nailiyyətlər arzulayırıq.

**"Azərbaycan neft təsərrüfatı" jurnalının**
**Baş redaktorunun müavini,**
**professor Eldar Şahbazov**